https://doi.org/10.59849/3006-1342.2025.2.65
UOT 94(479.24)

*Nərgiz Nağı qızı İbrahimova*
*Gəncə Dövlət Universiteti*
*Müəllim*
*E-mail: nergiz686@gmail.com*
*ORCID ID: 0009-0003-8299-8117*

# QARABAĞIN MƏDƏNİ İRSİNƏ DAİR

*Məqalədə qədim Qarabağ ərazisinin mədəni irsinə xristian-alban mədəniyyətinin, həmçinin İslam dininin təsirindən söz açılır. Eyni zamanda Qarabağda yerli üslubda inşa olunan abidələr - karvansaralar, körpülər, ticarət üçün tikilmiş hamamlar haqqında da məlumat verilmişdir. Bundan əlavə erməni vandalizminə məruz qalmış daşınmaz mədəni irs nümunələrindən, işğaldan azad olunan ərazilərdəki tarix-mədəniyyət abidələrinin bərpasından, mədəni irsin qorunması istiqamətində görülən tədbirlərdən bəhs olunur.*

*Açar sözlər:* Qarabağ, mədəni irs, dini abidələr, memarlıq, erməni vandalizmi

## *Giriş*

Tarixi qədər də zəngin mədəniyyət ənənələri olan Qarabağ bölgəsi dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Azıx düşərgəsindən başlayaraq Quruçay, sonra isə Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin bir-birini əvəzləməsi burada yaşayışın olduğunu təsdiqləyir. Həmçinin, Qarabağ regionunda qədim, orta əsrlər, yeni və ən yeni dövrlərdə ərsəyə gələn maddi və mənəvi mədəniyyət nümunələri müasir tariximizin mədəni irsi kimi öz əhəmiyyətini bu gün də saxlamaqdadır.

Tarix səhnəsində adı ilk dəfə VII əsrdə "Qarabağ" kimi çəkilən bölgənin adı türk dilindəki "Qara" (böyük) və "bağ" sözlərinin birləşməsindən yaranmışdır. Region ilk orta əsrlərdə Girdman, Sakasena, Uti, Paytakaran, Sisakanda (indiki Qarabağı və Mil düzünün bir hissəsi) kimi böyük vilayətləri əhatə edirdi [5, s. 1].

**Qarabağ mədəniyyətində xristian-albanlarının və islam dininin izləri.** IV əsrin əvvəllərindən Zaqafqaziyada xristianlığın yayılmağa başladığı vaxtda Bizansın da təsiri ilə xristian dini Albaniyanın rəsmi dövlət dini olmuşdu. Qarabağ isə 551-ci ildən alban katalikosunun daimi yaşayış yerinə çevrildi [14, s.40]. Tarixi araşdırmalar sübut edir ki, Albaniyada erkən orta əsrdə (IV əsrdə) xristianlıq dininin qəbulundan sonra IV-VII əsrlər tikinti mədəniyyətini səciyyəvi edən dini abidələr xristian arxitekturası formasında, memarlıq üslubunda yaradılmışdır. Türk tayfalarının Albaniyanın idarəçiliyində və memarlığının inkişafındakı rolu danıla bilməz. Bu səbəbdən adətən alban memarlığından bəhs edilərkən "alban-türk memarlığı" ifadəsi işlədilir.

VII əsrin ortalarında albanlara aid 30-dan artıq monastır var idi. Dövrümüzə gəlib çatan, qədim alban-türk memarlığının şah əsərləri sayılan, XIII əsrə aid, Qarabağ bölgəsində - Kəlbəcərdə yerləşən I Xotavəng, Xocavənd rayonunun Sos kəndində IV əsrdə inşa edilmiş Amaras alban-türk məbədi, müqəddəs Yelisey məbədi kompleksi (V-XIV əsrlər) də xristianlıq dövrünün tikinti memarlığını səciyyələndirir [6]. Bu günə kimi Qarabağda mövcudluğunu qoruyub saxlayan abidələrdən olan Qansazar və ya Gəncəsər monastır kompleksi 1511-ci ildən 1836-cı ilə kimi Alban xristianlarının iqamətgahı olmuşdur. Hazırda Qarabağın dağlıq Ağdərə rayonunun Vəngi kəndi ərazisində yerləşən, orta əsr alban memarlıq məktəbinin nadir incilərindən hesab olunan monastırda 84 daşüstü yazı var [3, s. 27].

Laçın rayonunun Ağoğlan çayı yaxınlığında yerləşən, alban xristian məbədlərindən olan Ağoğlan monastırı VIII-IX əsrə məxsus olan xristian memarlıq abidələri arasında bazilika məbəd tikinti üslubunda inşa olunmuşdur. Binanın damı silindrik tağbəndlə örtülmüş formadadır. Bu möhtəşəm bina yerli bazalt daşından tikilmişdir [2, s. 8-9]. Belə abidələrindən biri də Kəlbəcər rayonunun Vəng kəndində bazilika üslubunda inşa edilən və son dövrlərə kimi salamat qalan Xudavəng kompleksidir. Kompleks orta əsr Albaniya memarlığının ən gözəl nümunələrindən biri olmuş, X əsrdən XV əsrə kimi alban Xaçın knyazlığının xristian dini mərkəzi kimi fəaliyyət göstərmişdir. Məbəd ətrafında aparılan qazıntılar zamanı tapılan keramika məmulatı abidənin VI-VII əsrlərdə inşa edildiyini göstərir.

Qarabağın mərkəzi Şuşada yerləşən Qazançı kilsəsinin qalıqları (XIX əsr) da alban memarlığına nümunədir [9, s. 48-51]. Azərbaycanın tarixi Albaniya torpaqlarının varisi olmasını nəzərə alsaq Qarabağ ərazisindəki alban xristian abidələri birmənalı olaraq Azərbaycan xalqının milli mədəniyyətinə məxsusdur.

Qarabağ tarixindəki köklü dəyişkənliklər ərəb istilası və Albaniya dövlətinin süqutu ilə başlandı. İslam dininin qəbulu isə Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcı oldu. Xilafət hakimiyyəti möhkəmləndikcə bir çox ərazilərdə məscid kompleksləri tikilmiş, şəhərlər yeni üslubda qurulmuşdur [6, s. 32]. Qarabağda da məscid kompleksləri tikilərək, region Yaxın Şərq ölkələri şəhərlərinin üslubunda yenidən qurulmağa başlamışdır. Qarabağ bölgəsi də islam dininə məxsus müxtəlif qəbirüstü abidələr və çoxsaylı ziyarətgahlarla zəngindir. Bu dövrdə «Bərdəi», «Qarabaği» təxəllüsü ilə tanınan mütəfəkkirlər yetişmişdir. Onlardan biri XIII-XIV əsrlərdə yaşayan məşhur memar Əli Məcidəddin Qarabaği olmuşdur.

Belə abidələrdən biri də Zəngilanda, Məmmədbəyli kəndində yerləşən Yəhya İbn Məhəmməd türbəsidir. Bu türbədə böyük alim Yəhya bəy Hacı Məhəmməd dəfn edilmişdir. Türbənin qapısında həkk edilən kitabədə tikilmə tarixi (1305-ci il) və Ə.Məcidəddinin adı var [14, s. 32]. Ağdamın Papravənd kəndində tikilən türbənin planı isə XVI əsr Abşeron türbələrinin quruluşuna uyğundur. Günbəzli tikintilər qrupuna məxsus olan türbəyə Beyləqanda Örənqala şəhər yerində rast gəlinmişdir.

Həmçinin, Füzulidəki Şeyx Yaqub türbəsi (XII əsr), Qoçəhmədli Cümə məscidi, Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mirəli (XIV əsr), Şeyx İbrahim türbəsi (XVII əsr), Horadiz kəndindəki Cümə məscidi, Cəbrayılın Şıxlar kəndində türbə (1308-ci il) və b. türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında oniki künclü türbə Qarabağın zəngin mədəniyyəti üçün örnəkdir [7, s. 185]. Eyni zamanda Laçın ərazisindəki Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı Aşığın türbəsi (XV əsr) tariximizin qiymətli maddi mədəniyyət abidələrindəndir [9, s. 5-6].

XIX əsrin sonu-XX əsrin əvvəllərində isə demək mümkündür ki, artıq bütün qəza mərkəzlərində və qəsəbələrdə məscidlərə rast gəlinirdi. Belə ki, Şuşa şəhərindəki Aşağı Gövhər Ağa və Yuxarı Gövhər Ağa məscidləri (XIX əsr), 1883-cü ildə inşa olunmuş Cümə və Saatlı (Səədli) məscidləri bu qəbildəndir. Cəbrayılın Dədəli və Horadiz kəndlərində yerləşən məscidlər isə Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Bu dövrə aid Ağdamda yerləşən dini abidələrə isə Cümə məscidi (1870), Şahbulaq məscidlərinin adını çəkmək olar.

**Qarabağ bölgəsinin memarlıq abidələri.** Milli memarlıq abidələri ilə zəngin olan Qarabağda Avropa memarlığı dərin kök sala bilməyərək yerli üslubların içində yox olmuşdur. Qarabağ bölgəsində tikilən körpülərə ən gözəl nümunələrdən biri Cəbrayıl qəzasının Qumlaq və Xudafərin kəndlərinin arasında Araz çayı üzərində tikilən "Xudafərin" körpüləridir. Körpülərdən biri on bir, o biri isə on beş aşırımlıdır. Ara məsafələri 800 m olan iki möhtəşəm körpünün tikilməsi o dövr üçün Qarabağın mədəni və ticarət əlaqələrinin olduqca yüksək səviyyəli olmasını göstərir.

Dövrümüzə kimi gəlib çatan on beş aşırımlı körpü XI əsrə (bəzi mənbələrdə VII əsrə aid göstərilir), on bir aşırımlı körpü isə XIII əsrə məxsusdur. Birinci körpünün uzunluğu 200 m,

eni 4,5 m-dir. Körpülərdən ikincisinin isə uzunluğu 130 m, eni 6 m -dir [1, s.75-76]. Əmir Çoban Salduz tərəfindən tikdirilmiş bir aşırımlı Sal körpüsü isə Arpa çayı Araza töküldüyü ərazidə yerləşir. Körpülər bu gün də Sal (Salduz) və Çoban adlarını daşıyırlar.

Elxanilərin hakimiyyəti dövründə İpək yolu üzərində bir çox karvansara və xanəgah binaları inşa olunmuşdu. Bu xanəgahlardan Füzuli rayonunun Babı kəndində olan şeyx Babi Yəqub xanəgahı, Zəngilan rayonunun Məmmədbəyli kəndindəki Yəhya ibn Məhəmməd türbəsi, Cəbrayılın Şıxlar kəndində yerləşən Şıx Baba xanəgahı uzun yüzilliklər boyu geniş tanınmışdır [11, s. 13-16].

XX əsrin ilk onilliklərində Şuşada 4 karvansara fəaliyyət göstərirdi: 1890-cı ildə Məşədi Şükür Mirsahib oğlunun Hacı Yusif məhəlləsində tikdiyi karvansara, Xanlıq Muxtar karvansarası, Ağa Qəhrəman Mirsiyab-oğlunun karvansarası və Səfərov karvansarası.

Ticarət üçün tikilən hamamları da dövrün memarlıq abidəsi kimi göstərmək mümkündür: VIII əsrdə Cəbrayıl qəzasının Şıxlar kəndində tikilən Sultan Məcid hamamı, XIX əsrdə Cəbrayılda inşa olunmuş Sultan Allahverdi hamamı. Belə hamamlardan biri də XIX əsrdə Qarabulaq kəndində tikilmişdir [10]. Qarabağ bölgəsinin özünəməxsus memarlığı XX əsrin əvvəllərində də öz inkişafını davam etdirmişdir. Bu dövrdə Şuşa şəhərində ümumilikdə 549 qədimi bina, ümumi uzunluğu 1203 metr olan daş döşəməli küçələr, 17 bulaq, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. Belə abidələrin əksəriyyətini XIX əsrdə yaşayan, şəhərsalma sahəsində misilsiz xidmətlər göstərən memar Kərbəlayı Səfixan Qarabağı (1788-1910) inşa etmiş və dövrün ən məşhur nəqqaşı Kərbəlayı Səfərəli isə bəzəmişdi [7, s.186].

Ümumiyyətlə, Qarabağ bölgəsi görkəmli memarlar, xəttatlar, nəqqaşlar və bacarıqlı rəssamlar yurdu hesab olunurdu. Müxtəlif mənbələrin məlumatlarına görə, tanınmış memar Usta Qənbər Qarabaği və onun şagirdləri olmuş qardaşı Səfər və oğlu Şükür sarayların salonlarında, abidələrin üzərində peşəkarlıqla divar rəsmləri çəkirdilər. Onların rəsmlərini Şuşa şəhərində, XX yüzilliyin əvvəllərində Avropa üsulu ilə tikilən Kərim bəy Mehmandarovun, Hacı Məmmədovun yaşayış evlərində görmək mümkündür [15, s. 113-116].

**İşğaldan azad edilən ərazilərimizdə mədəni irs.** Mədəni irs hər bir xalqın milli mədəni tarixi sərvətidir. Bir xalqın mədəni irsinin digər millətlər tərəfindən dağıdılması və vandalizmə məruz qalması beynəlxalq qanunlar və konvensiyalara görə də yolverilməz hesab olunur. YUNESKO-nun qərarı ilə abidələrin məhvinin insanlığa qarşı törədilən cinayət olaraq qəbul olunmasına baxmayaraq dünya birliyi ümumbəşəri əhəmiyyətli abidələrin saxtalaşdırılması faktlarına göz yumaraq vandalizm əməllərinin qarşısının alınması üçün heç bir əməli addım atmamışdır.

İşğal zamanı Qarabağ və Şərqi Zəngəzur ərazilərində 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri mövcud idi. Həmçinin, bu bölgələrdə 40 mindən artıq eksponatın olduğu 22 muzey, 927 kitabxana, 4 teatr, 31 məscid, 9 tarixi saray, 8 istirahət parkı və 85 musiqi məktəbi vardı.

XX əsrin sonlarında Qarabağın Azərbaycandan qoparılması istiqamətində yönələn separatizm meyilləri nəticəsində 1992-2020-ci illər ərzində Azərbaycanın tarixi torpaqları Ermənistan Respublikası tərəfindən işğal altında saxlanmışdır. 30 il müddətində azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə yanaşı tarixi, dini abidələrə qarşı mədəni soyqırım siyasəti də həyata keçirilmişdir. Bu illər Qarabağ bölgəsinin tarixi-mədəni abidələrinin kütləvi şəkildə məhv edilməsi, dini abidələrin talan və təhqir olunması, abidələrə aid olan dəyərli elementlərin qanunsuz şəkildə Ermənistana aparılması ilə müşayiət olunmuşdur. İşğal dövründə çoxəsrlik zəngin tariximizin arxeoloji, memarlıq, mədəni və dini əhəmiyyətə malik xəzinəsinin ən önəmli inciləri məhv edilmişdir [13, s. 6].

2020-ci ildə 44 günlük müharibədən sonra Azərbaycan xalqının qələbəsi və tarixi ədalətin bərpa olunması mənfur düşmənlərimizin mədəni irsimizə sahiblənmək planları iflasa uğradı.

Azərbaycan Prezidenti İlham Əliyevin apardığı qətiyyətli siyasət və Müzəffər Azərbaycan Ordusunun hərbi qüdrəti sayəsində torpaqlarımızla bərabər əsir düşən abidələr də erməni işğalından azad olundu.

Vətən müharibəsi başa çatdıqdan sonra işğaldan azad olunan ərazilərdə geniş və sürətli tikinti-bərpa, quruculuq işlərinə başladı. Bir sıra istiqamətlərdə, xüsusilə regionun enerji təminatı, yolların qurulması və hava limanlarının inşası sahəsində önəmli addımlar atılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarənin təşkili haqqında" 29 oktyabr 2020-ci il tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq, işğaldan azad olunan ərazilərdə tarixi abidələrin ilkin olaraq inventarlaşdırılması və qorunması üçün mədəniyyət müəssisələrinin monitorinqi keçirilmişdir [8].

Görülmüş tədbirlər nəticəsində işğal zamanı Ermənistan Respublikasının mədəniyyət abidələri ilə əlaqədar qanundan kənar əməllər həyata keçirdiyi ərazilərin vəziyyəti müəyyən edildi. Düşmən tapdağında qalmış ərazilərdə məscidlər, mədrəsələr təkcə məhv edilməmiş, həm də fərqli məqsədlər üçün istifadə edilmişdir. Pənahəli xan və Mehdiqulu xanın Ağdamda yerləşən məqbərələri dağıdılaraq, abidələrə ciddi ziyan vurulmuşdur. İbrahimxəlil xanın isə tamamən məhv edilmişdir. Təbii ki, bunlar erməni vandallığına məruz qalan abidələrin bir hissəsidir.

Mədəni irsə qarşı vandalcasına davranmaq bütün dünya mədəniyyəti üçün təhlükəlidir. Hal-hazırda Bülbülün ev muzeyi, Üzeyir Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin məqbərəsi və büstü, Yuxarı və Aşağı Gövhər ağa, Ağdam Cümə məscidlərinin bərpa işləri olunub. Digər abidələrin bərpası da eyni diqqətlə yerinə yetirilir [4, s. 6].

*Nəticə*

Göründüyü kimi əzəli və əbədi türk yurdu olan Qarabağ ərazisi Azərbaycan xalqının tarixən varlığını təsdiqləyən, bölgəyə məxsusluğunu təsdiq edən mədəniyyət abidələri ilə zəngindir. Bu gün qədim mədəni və mənəvi irsimizin bərpasında əsas məsələlərdən biri də işğaldan azad edilmiş bölgələrdə aparılan işlərin tarixi irsimizin simasına, "Qarabağ" memarlıq məktəbinə uyğunlaşdırılaraq həyata keçirməkdir. Qarabağda böyük qayıdışın nəticəsi kimi aparılan bərpa və yenidənqurma işləri işğaldan azad olunmuş ərazilərimizə yeni həyat gətirməklə milli kimliyimizi sübut edəcək.

ƏDƏBİYYAT


1. Azərbaycanda inşaat sənəti (IV-XVII əsrlər). Azərbaycan SSR EA Tarix İnstitutu. Bakı: Elm, 1978, 210 s.
2. Əliyev İ., Məmmədzadə K. Qarabağın Alban abidələri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 32 s.
3. Əsədzadə İ. Qarabağın qədim Alban mədəniyyətini erməniləşdirilməsinə cəhd. "Xəbərlər məcmuəsi" (İctimai və humanitar elmlər seriyası). "Elm" nəşriyyatı. Gəncə, 2024. 49 s., s. 24-31.
4. Fərəcova Z. "İşğaldan azad olunmuş rayonlarda Azərbaycanın mədəni irsi bərpa olunur". "Azərbaycan" qəzeti. 11 iyul, 2023. https://www.azerbaijan-news.az/az/ posts/detail/ isgaldan-azad-olunmus- rayonlarda azerbaycanin-medeni-irsi-berpa-olunur-1689025425
5. Hacıyev Q. Azərbaycanın Qarabağ regionunda türk kökənli maddi və mənəvi mədəniyyət tarixindən. Orta Doğu ve Orta Asya-Kafkaslar Araştırma ve Uygulama Merkezi Dergisi. №2, 2021.

6. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti. Bakı, "Təhsil", 2010. 152 s.
7. Həsənov B. Qarabağ bölgəsi XX əsrin əvvəllərində (ictimai-si-yasi, sosial-iqtisadi, mədəni həyat) . "İdeal-Print" MMC, Bakı, 2022, 272 s.
8. İsmayılova Ə. "Keçən il əsas məqsədlərimizdən biri azad edilmiş torpaqlarda bərpa işinə başlamaq olmuşdur". https://www.millikitabxana.az/news/kecen-il-esas-meqsedlerimizden-biri-azad-edilmis-torpaqlarda-berpa-isine-baslamaq-olmusdur
9. Qarabağ abidələri. Üç dildə. Azərbaycan, rus, ingilis. Bakı: "Günəş-B" MMC, 2015, 190 s.
10. Məmmədov N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: Avrora, 2016, 960 s.
11. Nemətova M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
12. Нейматова М. Эпиграфические памятники Азербайджана эпохи Низами. Баку: Элм, 1991
13. Paşayeva M. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı, Mütərcim, 2022, 200 s. 6 s.
14. Piriyev V. Azərbaycan tarixi – siyasi coğrafiyası.152 s. B.Araz. 2002.
15. Tərlanov M., Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı: Uşaq və gənclik nəşriyyatı, 1960, 123 s.

УДК 94(479.24)

*Наргиз Наги кызы Ибрагимова*
*Гянджинский Государственный Университет*

## О КУЛЬТУРНОМ НАСЛЕДИИ КАРАБАХА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Карабах, культурное наследие, религиозные памятники, архитектура, армянский вандализм

В статье рассматривается влияние христианско-албанской культуры, а также ислама на культурное наследие древней территории Карабаха. В то же время дается информация о памятниках, построенных в местном стиле в Карабахе - караван-сараях, мостах, банях, построенных для торговли. Кроме того, рассматриваются примеры недвижимого культурного наследия, подвергшегося армянскому вандализму, реставрация историко-культурных памятников на освобожденных от оккупации территориях, меры, принимаемые для защиты культурного наследия.

UDC 94(479.24)

*Nargiz Nagi Ibrahimova*
*Ganja State University*

## ABOUT THE CULTURAL HERITAGE OF KARABAKH
*SUMMARY*

*Key words:* Karabakh, cultural heritage, religious monuments, architecture, Armenian vandalism

The article discusses the influence of Christian-Albanian culture, as well as Islam, on the cultural heritage of the ancient Karabakh territory. At the same time, information is

provided about the monuments built in the local style in Karabakh - caravanserais, bridges, and baths built for trade. In addition, it discusses examples of immovable cultural heritage that have been subjected to Armenian vandalism, the restoration of historical and cultural monuments in the territories liberated from occupation, and measures taken to protect cultural heritage.

***Daxil oldu: 30.06.2025-ci il***